# Patrik Hikki: Belə qısa müddət ərzində görülmüş bu qədər işləri hətta ən çılğın arzularımızla təsəvvür edə bilməzdik

Bu rəyi Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki «Bakı-2015» I Avropa Oyunlarının məşəlinin alovlandırılması mərasimindəki çıxışı zamanı söyləmişdir. Patrik Hikki əlavə olaraq demişdir: «Əslində bütün Bakı heyəti hətta oyunlar başlamazdan öncə dünya rekorduna imza atdı».

Bu rekordun bir sıra məqamlarını oxucuların nəzərinə çatdırmaq istərdik. Birinci növbədə əvvəllər başqa ölkələrdə 84 aya, yəni 7-8 ilə görülən iş müddəti Azərbaycanda üç dəfə azaldılaraq 2 il yarımdan da az müddətə görülmüşdür.

Bəs görülən işlər nədən ibarətdir?.

İlk növbədə qeyd edək ki, **Bakı Olimpiya Stadionu** öz müasirliyi və möhtəşəmliyi ilə hər kəsdə qürur doğurur. 50 hektar ərazidə tikilən, 6 mərtəbədən ibarət olmaqla hündürlüyü 62 metrə çatan bu nəhəng qurğu 68 min tamaşaçı tutur. Stadionun tikintisinə 2011-ci ilin iyun ayının 6-da başlanmış, 2015-ci ilin mart ayının 18-də açılış mərasimi olmuşdur. Onun sahəsinə 4, tribunaya isə 26 qapıdan giriş var. Avropa Oyunlarının açılış və bağlanış mərasimləri də burada keçiriləcəkdir.

**Bakı Su İdman Sarayının** ümumi sahəsi 72 min kvadratmetrdir. Burada üç hovuz yaradılıb. Uzunluğu 50, eni 25, dərinliyi isə 2,5 metr olan hovuzda 800-dən çox idmançının yarışacağı gözlənilir. Sarayın açılışı ötən ayın 20-də olmuşdur.

Yeni istifadəyə verilən ən müasir idman qurğularından biri də **Milli Gimnastika Arenasıdır.** Ötən aprel ayında bu arenada sınaq yarışları uğurla keçmişdir. Yarışların miqyasından asılı olaraq arenanın əsas hissəsində oturacaq yerlərinin sayını 5 mindən 10 minə qədər artırmaq mümkündür. Burada dünya standartlarına uyğun olaraq mətbuat mərkəzi, ilk tibbi yardım məntəqəsi, xoreoqrafiya, tirenajor zalları, mağazalar, kafelər və digər yardımçı sahələr yerləşir. Zalda ən müasir gimnastika avadanlığı quraşdırılmışdır. Birinci Avropa Oyunları çərçivəsində gimnastikanın 6 növü üzrə yarışların, 2019-cu ildə isə bədii gimnastika üzrə 2020-ci il Olimpiyadasına Lisenziya xarakterli dünya çempionatının burada keçirilməsi nəzərdə tutulur.

Bakıda Avropa Oyunlarının keçirilməsinin vacib məsələlərindən biri də Olimpiya kəndinin hazırlanması idi. Bu məkan üçün ən əlverişli yer seçmək tələb olunurdu. Problem uğurla həll edildi. Artıq 7 min 878 atletin yerləşə biləcəyi **«Atletlər kəndi»** qonaqların qəbuluna tam hazırdır. Ümumi sahəsi 383 min kvadratmetr olan yaşayış məntəqəsi ölçüsünə görə Olimpiya Oyunlarındakından fərqlənir və təqribən iki dəfə böyükdür. 10 və 16 mərtəbəli 13 binadan ibarət olan obyektin hər mərtəbəsində 3, ya 5 mənzil var. «Atletlər kəndi»nin Olimpiya stadionu ilə Milli Gimnastika Arenasının yaxınlığında, paytaxt arteriyasını təşkil edən dairəvi yolların kənarında yerləşməsi gediş-gəliş üçün rahat və sürətlidir.

**Bakı Atıcılıq Mərkəzi** də paytaxtın yeni idman obyektlərindəndir. Mərkəz idmanın güllə və stend atıcılığı növləri üzrə yarışların və məşqlərin keçirilməsi üçün nəzərdə tutulub. Fuksional zonalarının sahəsi 123 min kvadratmetrdən artıqdır. Güllə atıcılığı sahəsində 10, 25, 50 və 300 metr məsafəyə yarışlar keçiriləcək. 10 metrlik məsafəyə qapalı atış tirində 80 idmançı, iyirmibeş metrlik məsafəyə yarımqapbalı atış tirində xətti isə eyni vaxtda 80 idmançıya bacarığını sınamağa imkan verir. 300 metirlik məsafəyə yarımqapalı atış tirində də idmançıların yüksək səhiyyədə yarışmalarına imkan var. Güllə atıcılığı binasında Beynəlxalq Atıcılıq Federasiyasının tələblərinə uyğun olaraq qurulan zalların hər birində idmançılara, hakimlərə, məşqçilərə xidmət edəcək xüsusi otaqlar vardır.

**Avropa Oyunları parkında** su polusu, çimərlik voleybolu, çimərlik futbolu və basketbol yarışları keçiriləcəkdir. Park üç idman qurğusundan və dörd funksional zonadan ibarətdir. Qurğunun ümumi ərazisi 18 hektar, tikintialtı sahə isə 70 min kvadratmetrə yaxındır. İclas və VİP sahələri də var. Kompleksdə 1836 və 560 tamaşaçısı olan iki üzgüçülük hovuzu da tikilib.

Müasir idman qurğularından biri də **Veloparkdır.** Burada velosiped idmanı üçün bütün növ yarışların keçirilməsinə şərait yaradılmışdır. Veloparkın ərazisində ikimərtəbəli ofis binası, iş, dopinq nəzarəti, dopinq analizgötürmə otaqları, 25 yerlik iclas zalı və digər yardımçı otaqlar var. Ərazidə VİP, Olimpiya ailəsi, qonaqlar və nümayəndələr üçün yer, avtodayanacaq, habelə digər xidmət sahələri mövcuddur.

Bunlarla yanaşı indiyədək ölkə paytaxtında fəaliyyət göstərən bir sıra tikintilər isə yenidən qurularaq idman yarışlarının yüksək səviyyədə keçirilməsinə uyğunlaşdırılmışdır. Bunlardan «Kristal Hall», Heydər Əliyev adına İdman-Konsert Kompleksi, Tofiq Bəhramov adına Respublika Stadionu və Müvəqqəti Basketbol arenalarını göstərmək olar.

Birinci Avropa oyunlarına təqribən 1000-1500 KİV nümayəndəsinin gəlişi gözlənilir. Onların qarşılanıb yerləşdirilməsilə bağlı heç bir problem yoxdur. Onların oyunların gedişi ilə bağlı anındaca xəbər tutmaları, müxtəlif yarışları əyani şəkildə izləmələri, topladıqları informasiyaları, yazdıqları yazıları çalışdıqları quruma dərhal çatdırmaları, rahat işləmələri və dincəlmələri üçün bütün şərait yaradılmışdır. Bu məqsədlə inşa olunan «Media mərkəzi» yeni və müasirdir.

Bütün bunlar artıq Azərbaycanın tarixinə parlaq və şərəfli bir günün yazılacağından xəbər verir. Bu gün çox uzaqda deyildir. Cəmi 13 gün qalır.

# Faktlar və rəqəmlər

✤1918-ci il mayın 28-də Tiflis şəhərində tarixdə ilk dəfə olaraq Şərqdə, bütün müsəlman aləmində Azərbaycanda demokratik respublika yaradılması elan edilmişdir. Bu, XIX əsrin sonu, XX əsrin əvvəllərində ölkəmizdə və dünyada gedən ictimai-siyasi proseslərin, Azərbaycan xalqının milli özünüdərkinin, oyanışının məntiqi nəticəsi idi.

✤Dövrün çətin prosesləri şəraitində ölkədə müstəqil cümhuriyyəti qura biləcək bir sıra ziyalılar yetişmişdi.

✤Cümhuriyyətin ilk qərarı ilə milliyyəti, dini, sosial vəziyyəti və cinsindən asılı olmayaraq ölkəmizin bütün vətəndaşlarına bərabər hüquqlar verilmişdir. Yuxarıda qeyd edilən insanlar 1918-ci ildə yaranmış çətin vəziyyətdə birləşərək Tiflisdə Azərbaycanın «İstiqlal Bəyannaməsi»ni qəbul etmişlər. Bəyannamə ilə Azərbaycanda demokratik respublika idarə üsulunun, parlamentli dövlətin yaradıldığı elan olundu və müstəqil demokratik ölkənin daxili və xarici siyasətinin başlıca prinsipləri bütün dünyaya çatdırıldı.1919-cu ilin sonlarında Cümhuriyyət 20-dən artıq ölkə ilə diplomatik əlaqə yaratmışdı.

✤Azərbaycan Xalq Cümhuriyyəti yarandığı gündən 1918-ci il iyun ayının 16-dək Tiflis dövrünü, iyun ayının 16-dan sentyabr ayının 16-dək Gəncə dövrünü, sentyabrın 17-dən 1920-ci ilin 28 aprelinədək Bakı dövrünü yaşadı.

✤1918-ci ilin iyun ayının 27-də Azərbaycan tarixində ilk dəfə olaraq Azərbaycan dili rəsmən dövlət dili elan edilmişdir.

✤Xalq Cümhuriyyətinin dövlət bayrağı 1918-ci ilin noyabr ayının 19-da Əlibəy Hüseynzadə və Ziya Göyalp tərəfindən irəli sürülən ideya əsasında parlamentə təqdim olunmuşdur, 1920-ci ilin aprelində Məmmədəmin Rəsulzadənin təklifi ilə Azərbaycan Demokratik Xalq Cümhuriyyətinin, Parlamentində Dövlət bayrağı kimi qəbul olunmuşdur.

✤1919-cu ildə Dövlət Himni parlamentdə ilk dəfə marş kimi səslənmiş, 1920-ci ildə isə Parlament tərəfindən Dövlət Himni kimi qəbul edilmişdir. Sözləri Əhməd Cavadın, musiqisi isə Üzeyir bəy Hacıbəylinindir. 1992-ci ildə isə xalqın istəyi ilə Milli Məclisdə Dövlət Himni bərpa edilmişdir.

✤1918-ci ilin mayında müstəqil dövlətin ilk xalq Maarifi Nazirliyi yaradılmışdı. O dövrun görkəmli ictima-siyasi xadimi Nəsib bəy Yusifbəyli nazir vəzifəsinə təyin olunmuşdu.

✤1919-cu ilin martında N.Yusifbəylinin sədrliyi ilə yaradılan hökumət kabinetində maarif naziri R. Kaplanov təyin olunmuşdu. 1919-cu ilin dekabr ayının 14-də isə bu vəzifəni Həmid bəy Şahtaxtinski icra etmişdi. Azərbaycan Xalq Cümhuriyyətinin sonuncu təhsil naziri Nurməmməd bəy Şahsuvarov olmuşdur.

✤1918-ci ilin may ayının 28-də Fətəli xan Xoyskinin rəhbərliyi ilə Gəncədə yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri də iyun ayının 17-də Səhiyyə Nazirliyinin yaradılması idi. Nazirliyə rəhbərlik Xarkov Universitetinin tibb fakültəsini bitirmiş, ixtisasca cərrah olan Xudat bəy Rəfibəyova tapşırılmışdır. Xalq Cümhuriyyəti dövründə Azərbaycanda 33 xəstəxana əhaliyə tibbi xidmət göstərmişdir. Ambulator xidmətləri isə pulsuz aparılmışdır. Bu dövrdə ölkənin sosial-iqtisadi vəziyyətinin ağır olmasına baxmayaraq təhsil və səhiyyənin inkişafına ciddi diqqət yetirilmişdir.

1919-cu ilin mayında X. Rəfibəyov tutduğu vəzifəni tərk etmiş, Gəncə qubernıyasının general-qubernatoru təyin olunmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin sonuncu səhiyyə naziri isə Musa bəy Rəfiyev olmuşdur.

## Qəbələnin uşaq-gənclər idman məktəbinin komandası U-10 Liqasının qalibi olmuşdur

"Neftçi" və Qəbələnin uşaq-gənclər idman məktəbinin komandaları arasında keçirilmiş final oyunu ilə AFFA-nın U-10 Liqasının 2014/2015-ci il mövsümünə yekun vurulmuşdur. Qarşılaşma 4:3 hesabı ilə Qəbələ təmsilçisinin xeyrinə başa çatmışdır.

Oyun başa çatdıqdan sonra mükafatlandırma mərasimi təşkil olunmuşdur. Mükafatları AFFA-nın mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Mikayıl Nərimanoğlu, uşaq və gənclər üzrə yarışların təşkili şöbəsinin müdiri Yusif Vəliyev, "Neftçi" klubunun idman direktoru Vəli Qasımov və "Qəbələ"nin futbol direktoru Toni Adams təqdim etmişlər.

**Səhifənin materiallarını çapa Nadir ATAKİŞİYEV hazırlamışdır.**